***Əpoş VƏLİYEV***
*AMEA Folklor İnstitutu,*
*filologiya üzrə fəlsəfə doktoru*
elyarvelisoy@mail.ru
*ORCİD: 0009-0004-0934-2645*
*https://doi.org/10.59849/2309-7922.2026.1.127*

# MÜASİR AZƏRBAYCAN POEMASINDA FOLKLOR TRANSFORMASİYALARI: H.KÜRDOĞLU VƏ Z.YAQUB YARADICILIĞI KONTEKSTİNDƏ

**Xülasə**

Məqalədə müasir Azərbaycan poeziyasında, xüsusilə poema janrında şifahi xalq yaradıcılığı ənənələrinin transformasiyası məsələləri araşdırılır. Folklorun yazılı ədəbiyyatın ideya-estetik bazası olduğu, bu qarşılıqlı əlaqə Hüseyn Kürdoğlu və Zəlimxan Yaqubun yaradıcılığı üzərindən elmi təhlilə cəlb edilir. H.Kürdoğlunun "Aşıq və Yaxşı" poemasında bayatı, xoyrat, ağı və alqış kimi folklor janrlarının janryaradıcı amil kimi çıxış etdiyi, epistolyar forma ilə şifahi ənənənin sintez olunduğu müəyyən edilmişdir. Z.Yaqubun yaradıcılığında (xüsusilə "Göyçə dərdi" poemasında) dərd və vətən həsrəti motivlərinin xalq ağıları və dastan poetikası ("Koroğlu", "Əsli və Kərəm") vasitəsilə ümummilli və fəlsəfi müstəviyə qaldırıldığı əsaslandırılmışdır. Hər iki şairin yaradıcılığında folklorun sadəcə bədii bəzək deyil, əsərin strukturunu və milli-mənəvi mahiyyətini müəyyən edən strateji resurs olduğu sübuta yetirilmişdir. Məqalədə belə bir elmi qənaətə gəlinir ki, müasir poemada folklora müraciət xalqın tarixi yaddaşına qayıdışı təmin etməklə yanaşı, yazılı ədəbiyyatın xəlqilik ruhunu və bədii-fəlsəfi miqyasını genişləndirir.

**Açar sözlər:** Azərbaycan poeziyası, folklor, poema, folklor transformasiyası, Hüseyn Kürdoğlu, Zəlimxan Yaqub

***Aposh VALIYEV***

# FOLKLORE TRANSFORMATIONS IN MODERN AZERBAIJANI POEMS: IN THE CONTEXT OF H. KURDOGLU'S AND Z. YAQUB'S CREATIVITY

**Abstract**

The article examines the transformation of oral folk traditions in modern Azerbaijani poetry, specifically within the genre of the poem. Highlighting folklore as the ideological and aesthetic foundation of written literature, the study provides a scholarly analysis of this reciprocal relationship through the creative works of Huseyn Kurdoglu and Zelimkhan Yaqub. It is established that in H. Kurdoglu's poem "Ashig and Yakhshi," folklore genres such as bayati, khoyrat, lament (aghi), and benediction (algish) function as genre-forming factors, synthesizing the epistolary form with oral tradition. In Z.Yaqub's work (particularly in the poem "The Sorrow of Goycha"), it is argued that motifs of

grief and longing for the homeland are elevated to a national and philosophical level through folk laments and epic poetics (“Koroghlu”, “Asli and Kerem”). The study proves that in the works of both poets, folklore is not merely an artistic ornament but a strategic resource defining the structure and national-spiritual essence of the work. The article concludes that the recourse to folklore in modern poems ensures a return to the people's historical memory while expanding the national spirit and artistic-philosophical scale of written literature.

**Keywords:** Azerbaijani poetry, folklore, poem, folklore transformation, Huseyn Kurdoglu, Zelimkhan Yaqub.

***Апош ВАЛИЕВ***

## ТРАНСФОРМАЦИИ ФОЛЬКЛОРА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭМЕ: В КОНТЕКСТЕ ТВОРЧЕСТВА Г.КУРДОГЛУ И З.ЯКУБА

**Аннотация**

В статье исследуются вопросы трансформации традиций устного народного творчества в современной азербайджанской поэзии, в частности в жанре поэмы. Рассматривая фольклор как идейно-эстетическую базу письменной литературы, автор вовлекает это взаимовлияние в научный анализ на основе творчества Гусейна Курдоглу и Зелимхана Якуба. Установлено, что в поэме Г. Курдоглу «Ашуг и Яхши» такие фольклорные жанры, как баяты, хойрат, причитания (аги) и благопожелания (алгыш), выступают в качестве жанрообразующих факторов, синтезируя эпистолярную форму с устной традицией. Обосновано, что в творчестве З. Якуба (особенно в поэме «Гёйчейская боль») мотивы скорби и тоски по родине возводятся на общенациональный и философский уровень посредством народных причитаний и дастанной поэтики («Кёроглу», «Асли и Керем»). Доказано, что в творчестве обоих поэтов фольклор является не просто художественным украшением, а стратегическим ресурсом, определяющим структуру и национально-духовную сущность произведения. В статье делается научный вывод о том, что обращение к фольклору в современной поэме не только обеспечивает возвращение к исторической памяти народа, но и расширяет народный дух и художественно-философский масштаб письменной литературы.

**Ключевые слова:** азербайджанская поэзия, фольклор, поэма, трансформация фольклора, Гусейн Курдоглу, Зелимхан Якуб.

Əsrlər boyu şifahi xalq yaradıcılığı ilə yazılı ədəbiyyat, xüsusilə poeziya qarşılıqlı təsir şəraitində inkişaf etmişdir. Azərbaycan ədəbiyyatşünaslığında şifahi xalq yaradıcılığı yazılı ədəbiyyatın formalaşmasında və inkişafında həlledici amil kimi qəbul edilir. Folklor həm klassik, həm də müasir dövr poeziyasının ideya-estetik qaynağı olmaqla yanaşı, ədəbi-nəzəri düşüncənin təkamülündə aparıcı rol oynamışdır. Folklor ədəbi yaradıcılığa həm mövzu və motiv baxımından, həm də

bədii ifadə vasitələri səviyyəsində zəngin material vermiş, yazılı ədəbiyyatın ideya-bədii istiqamətini müəyyənləşdirmişdir.

Folklorşünaslıqda bu qarşılıqlı əlaqə daim diqqət mərkəzində olmuş, klassik və müasir poeziyanın xalq yaradıcılığından bəhrələnmə imkanları sistemli şəkildə araşdırılmışdır. Son 50-60 il ərzində folklorun yazılı ədəbiyyata təsiri məsələsi iki əsas istiqamətdə araşdırılmışdır:

1. **Klassik poeziya və folklor:** Ənənəvi ədəbi nümunələrin xalq yaradıcılığından bəhrələnmə səviyyəsi.
2. **Müasir ədəbi proses və folklor:** Müasir yazıçı və şairlərin yaradıcılığında folklor motivlərinin transformasiyası.

Ə.Saləddinin "Sabir və folklor" (11), B.A.Abdullayevin "Yusif Vəzir Çəmənzəminli və folklor" (1), C.Abdullayevin "Səməd Vurğun və folklor" (2), P.Əfəndiyevin "Cəfər Cabbarlı və xalq yaradıcılığı" (5) və "Səməd Vurğun və xalq yaradıcılığı" (4) adlı monoqrafiyaları bu istiqamətdə aparılmış fundamental araşdırmalar sırasındadır. Həmin tədqiqatların əsas məqsədi Azərbaycan şifahi xalq ədəbiyyatının yazılı ədəbiyyatın və poeziyanın inkişafındakı rolunu elmi əsaslarla təhlil və sistemləşdirmək olmuşdur.

Poema janrının folklorla əlaqəsi müasir Azərbaycan poeziyasında da davamlı və sistemli xarakter daşıyır. XX əsr poemalarında folklor elementləri müəlliflərin fərdi yaradıcılıq üslubu ilə üzvi şəkildə sintez olunmuş, nəticədə ənənə ilə yenilik arasında estetik bütövlük formalaşmışdır. Zaman keçdikcə folklor motivləri və poetik vasitələri poema janrının inkişafında daha qabarıq şəkildə özünü göstərmişdir. Şairlər bir tərəfdən bilavasitə folklor motivləri əsasında poemalar qələmə almış, digər tərəfdən isə xalq dastanları, əsatir və rəvayətlərdən, eləcə də folklor poetikasına məxsus bədii ifadə vasitələrindən yaradıcı şəkildə bəhrələnmişlər. Bu yanaşma yazılı poemaların ideya-məzmun strukturunu zənginləşdirmiş, surətlərin tipikliyini və ümumiləşdirmə gücünü artıraraq onlara ümumbəşəri və ümumxalq əhəmiyyəti qazandırmışdır.

Professor Kamran Əliyev yazır ki, şifahi və yazılı ədəbiyyatın bir-biri ilə təması müxtəlif dövrlərdə özünəməxsus şəkildə təzahür edir və müxtəlif istiqamətlərdə özünü göstərir. Bu təmas heç vaxt formal əlamətlərə əsaslanmır, əksinə burada məzmun və məna yaxınlığı həmişə üstünlük qazanır. Şübhə yoxdur ki, şifahi və yazılı ədəbiyyat nümunələrinin bir-birinə yaxınlaşmasında yazıçı və şairlərə aid olan subyektiv amillər də az rol oynamır. Hər halda bu yaxınlaşmalar mədəniyyətin inkişafının təkan nöqtələrindən hesab edilə bilər (7, s. 3).

XX əsr Azərbaycan poemasının bədii-estetik uğurları bilavasitə xalqın zəngin bədii təfəkkürü və dil resursları ilə bağlıdır. Səməd Vurğun, Məmməd Araz, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Kürdoğlu və Zəlimxan Yaqub kimi sənətkarların yaradıcılığında folklor motivləri və xalq ədəbiyyatından bəhrələnmə mühüm strateji əhəmiyyət kəsb edir. Bu şairlərin ən uğurlu poemaları xalq ruhuna bağlılıq, şifahi poeziya ənənələrinin yazılı ədəbiyyata peşəkar transformasiyası və xalq dilinin imkanlarından geniş istifadə sayəsində ümumxalq

mahiyyəti qazanmışdır. Beləliklə, folklor XX əsr poemasının həm struktur, həm də məzmun baxımından formalaşmasında əsas hərəkətverici qüvvə rolunu oynamışdır.

XX əsrdə folklor motivlərinə əsaslanaraq poema yaradan şairlərdən biri Hüseyn Kürdoğludur. Onun mani (bayatı) və xoyrat janrında qələmə aldığı "Tovuzum mənim – oğuzum mənim" və "Aşıq və Yaxşı" poemaları folklorla üzvi bağlılığı ilə seçilir (8; 9). Birinci poema bütövlükdə, ikinci əsərin isə böyük hissəsi bayatı və xoyrat forması üzərində qurulmuşdur. H.Kürdoğlu yaradıcılığı boyu xalq ədəbiyyatına yaxın mövqe tutmuş, folklor motiv və süjetlərini yaradıcı şəkildə işləyərək onları yeni bədii kontekstdə təqdim etmişdir. Bu baxımdan "Aşıq və Yaxşı" poeması xüsusilə səciyyəvidir. Əsərdə folklor süjeti formalaşdırıcı estetik amil kimi çıxış edir; burada dastan xarakterli mövzu və hadisə xətti əsas struktur elementi təşkil edir. 1993-cü ildə yazılmış və 29 məktub-müraciət və cavabdan ibarət olan poema epistolyar forma ilə folklor ənənəsini sintez edir. Əsərdə çoxsaylı bayatılardan və xalq dilinə məxsus ifadələrdən istifadə olunmuş, bu isə əsərin xəlqilik ruhunu gücləndirmişdir. Şairin heca vəzninə üstünlük verməsi də onun folklor estetikası ilə bağlılığını göstərir. "Aşıq və Yaxşı" süjeti xalq ədəbiyyatında dastan formasında mövcuddur və dastandakı Aşıq obrazının xalq sənətkarı Sarı Aşıqla əlaqələndirilməsi barədə geniş yayılmış elmi qənaətlər mövcuddur. Bu fikri H.Kürdoğlu "Aşıq və Yaxşı" poemasında belə qeyd edir:

Nərə çək yadına saldıqca yarı,
Həm Aşıq Sarısan, həm əskər Sarı (9, s. 225).

Mənbələrə görə, Sarı Aşıq XVII əsrdə yaşamışdır. Onun məzarının Qarabağın Zəngəzur bölgəsində yerləşən Güləbürd kəndində olduğu göstərilir. Qəbir daşının üzərində saz təsvirinin həkk olunması sənətkarın aşıq ənənəsi ilə bağlılığını təsdiqləyən mühüm işarədir. 1927-ci ildə aparılan arxeoloji araşdırmalar zamanı günbəzin XVII əsrə aid olduğu müəyyən edilmiş, bu fakt Sarı Aşığın həmin dövrdə yaşaması barədə elmi qənaəti gücləndirmişdir.

Aşıq mühitində Sarı Aşığın həyatı ilə bağlı bir rəvayət də yayılmışdır. Rəvayətə görə, onun Yaxşı adlı sevdiyi olmuş, lakin Yaxşının Yaman adlı qardaşı bu məhəbbətə qarşı çıxmışdır. Dastanda aşığın eşq yolunda qarşılaşdığı maneələr və çəkdiyi iztirablar bədii şəkildə ifadə edilir. Sarı Aşığa məxsus aşağıdakı bayatı nümunəsi də dövrümüzədək qorunub saxlanmışdır:

Mən Aşıq tərsinə qoy,
Tər təni tərsinə qoy,
Yaxşını qibləsinə
Aşığı tərsinə qoy (3, s. 179).

Sözügedən bayatı ilə bağlı xalq arasında söylənilən rəvayətə əsasən, Aşıq və Yaxşının məzarlarının qarşı-qarşıya yerləşdirilməsi Aşığın vəsiyyətinə uyğun şəkildə həyata keçirilmişdir (6, s. 179). H.Kürdoğlu "Aşıq və Yaxşı" poemasında Aşıq və Yaxşının məzarlarının qarşı-qarşıya yerləşməsi motivini aşağıdakı şəkildə təqdim edir:

Yamanla yaxşı yarı,
Dünyadan yaxşı yarı.
Bu tayda Aşıq yatır
O tayda Yaxşı yarı (9, s. 244).

H.Kürdoğlunun "Aşıq və Yaxşı" poemasında folklorun ağı janrından istifadə əsərin lirik-psixoloji təsirini gücləndirən əsas amillərdəndir. Şair bu nümunələrdə xalq ağılarının ənənəvi mövzu və strukturuna sadiq qalaraq, qəhrəmanın daxili sarsıntılarını və kədərini Aşığın dili ilə ifadə edir. Poemada yer alan ağılar, xüsusilə ""Laylay nigarım, laylay, // Dərdim, qubarım laylay. // Qanlı dövran əlindən, // Yaralı yarım laylay" misraları obrazın faciəsini və dövranın ədalətsizliyinə qarşı emosional reaksiyasını əks etdirir. Müəllifin müraciət etdiyi digər ağı nümunələri də ümumi kədər motivləri üzərində qurulmaqla, əsərin xalq yaradıcılığı ilə üzvi bağlılığını təmin edir:

Bu dağda daşlar ağlar,
Payızlar, qışlar ağlar.
Tökülər qəbrin üstə,
Köç gedən quşlar ağlar (9, s. 239).

H.Kürdoğlunun poemalarında lirik duyğuları, xeyirxah niyyətləri və xoş məramı ifadə etmək üçün xalq yaradıcılığına məxsus alqışlardan geniş istifadə olunmuşdur. Şairin əsərlərində yer alan bu nümunələr öz formasına və məntiqinə görə birbaşa xalq dilindən gələn ifadələrlə eynilik təşkil edir. Bu alqışların kökündə insanın öz arzu və diləklərinin reallaşması üçün ali varlığa – Tanrıya sığınması və mənəvi minnətdarlıq hissi dayanır. İnanclara görə, alqışın Allaha müraciətlə edilməsi onun qəbul olunma və gerçəkləşmə gücünü artırır.

Xalq dilində:
Allah sənə yar olsun.
Allah köməyin olsun. (12).
H.Kürdoğluda:
Karvanbaşı, Allah sənə yar olsun,
Bu kağızı apar Arzu dağına (9, s. 233).

XX əsr Azərbaycan poeziyasında poema janrının inkişafına mühüm töhfə verən sənətkarlardan biri Zəlimxan Yaqubdur. Onun yaradıcılığı şifahi xalq ədəbiyyatı ilə sıx bağlıdır və folklor poetikasının müxtəlif elementləri ilə zəngindir. Şairin poemalarında vətən, yurd həsrəti, itki, dərd və kədər motivləri aparıcı mövqe tutur. Bu baxımdan "Göyçə dərdi" poeması xüsusi diqqətə layiqdir; əsərdə vətən və həsrət ideyası əsas semantik xətti təşkil edir. Z.Yaqub fərdi emosional vəziyyətini ifadə edərkən xalq poetik leksikasına, atalar sözlərinə, hikmətli deyimlərə və folklor obrazlarına geniş şəkildə müraciət edir. Bu, onun yaradıcılığında milli-estetik düşüncə ilə fərdi poetik təfəkkürün vəhdətini təmin edir. Şairin irsinin folklor kontekstində araşdırılması, bir tərəfdən onun milli ənənələrə bağlılığını, digər tərəfdən isə klassik və müasir poeziya təcrübəsindən yaradıcı şəkildə bəhrələnmə səviyyəsini müəyyənləşdirməyə imkan yaradır. "Göyçə dərdi"

poemasında dərd motivi əsasən ictimai məzmun daşıyır və milli taleyə bağlı ideyaların ifadəsinə xidmət edir. Göyçə itkisi burada fərdi emosiyanın deyil, ümummilli ağrının poetik təcəssümü kimi təqdim olunur. Bununla belə, ictimai xarakter daşıyan bu dərd şairin şəxsi mənəvi yaşantısına çevrilir. Əsərin aparıcı ideyası Göyçənin vətən kimi dərk və təsdiq olunmasıdır:

Göyçəm-göyçəyim layla,
Solan çiçəyim layla.
Ah çəkən ağsaqqalım,
Qarabirçəyim layla! (13, s. 253)

Ənənəvi yas mərasimlərində oxşamaların sonunda "layla" və ya "laylay" ifadəsi səsləndirilir, ardınca mərhumun adı çəkilərək yas saxlanılırdı. Xüsusilə mərasimin ilk günündə iştirakçılara xatırladılırdı ki, ağıları "layla" sözü ilə tamamlasınlar. Ağıçılar mərhumu geniş təsvir edir, onun həyat yolunu və xüsusiyyətlərini poetik şəkildə anaraq müxtəlif ağı nümunələri söyləyir, sonda "laylay" nidasi ilə məclisdə ümumi hüzn ovqatı yaradırdılar. Yasın birinci günü əsasən yalnız vəfat etmiş şəxsin adına ağı deyilirdi. Növbəti günlərdə isə mərhumun digər dünyasını dəyişmiş yaxınları da yad olunur, onlar üçün də ağılar səsləndirilirdi. Bu ənənə mərasimin emosional təsirini artırır və kollektiv matəm mühitini gücləndirirdi (10, s. 19). Zəlimxan Yaqub "Göyçə dərdi" poemasında xalq ədəbiyyatı ənənələrinə sadiq qalaraq, oxşamaların sonunda "layla" sözündən geniş şəkildə istifadə edir. Poemada təsvir olunan dərd əsasən ictimai xarakter daşıyır; lakin şair bu motivi fərdi poetik duyğu ilə birləşdirərək onu şəxsi emosional təcrübəsinə çevirməyi bacarmışdır. Dərd obrazı Z.Yaqubun şeirlərində əsas ideya xəttini təşkil edir və hər bir şeirdə həm ideya, həm də məzmun baxımından vahid poetik bütövlük yaradır.

Zəlimxan Yaqub poemalarında xalq dastanlarından səmərəli şəkildə bəhrələnmişdir. Onun əsərlərində "Koroğlu" və "Əsli və Kərəm" kimi klassik dastanlara istinadlar müşahidə olunur. Məsələn, "Göyçə dərdi" poemasında Koroğlunun atları Qırat və Düratın adları çəkilir, eyni zamanda qədim atüstü xalq oyunlarına da toxunularaq onların poetik təsviri təqdim olunur:

Yarışda bilinərdi
Kiminki Qırat oldu,
Kiminki Dürat oldu.
Kiminki mağrım, fağır,
Kiminki kür at oldu (13, s. 261).

Zəlimxan Yaqubun poema yaradıcılığında fundamental fəlsəfi qarşıdurma olan xeyir və şər problemi mərkəzi yerlərdən birini tutur. Müəllif əyri ilə düzün, yaxşı ilə yamanın, haqq ilə nahaqqın əbədi mübarizəsini bədii boyalarla nəzmə çəkərək geniş oxucu kütləsinə təqdim edir. Bu kontekstdə şair "Əsli və Kərəm" dastanına müraciət edərək, klassik folklor süjeti vasitəsilə Kərəmin faciəsini müasir müstəvidə yenidən canlandırır. Beləliklə, dastan motivləri şairin misralarında həm

mənəvi saflığın təsdiqi, həm də şərin törətdiyi fəsadların obrazlı ifadəsi kimi çıxış edir:

Nə zaman ki, böhtan gülür,
Şər yeriyir, ayaq tutur,
Nə zaman ki, başa keçib
Haqq yerini nahaq tutur,
Nə zaman ki, əyri düzlə,
Yaxşı pislə calaq tumr,
Bax, o zaman Lələ köçür,
Kərəmi ağlamaq tutur! (13, s. 262)

Təhlil edilən nümunələr göstərir ki, müasir Azərbaycan poemasında folklor nümunələrindən istifadə sistemli xarakter daşıyır. Şairlər xalqın mənəvi təcrübəsini, emosional yaşantılarını və milli ideallarını şifahi nitqdən yazılı ədəbiyyata transfer edərək, bu dəyərlərin bədii yaddaşda möhkəmlənməsini strateji vəzifə kimi qarşıya qoyurlar. Folklor nümunələrinin poema strukturuna yaradıcı şəkildə daxil edilməsi sadə bir təsir deyil, xalqın tarixi-mədəni yaddaşının bərpası prosesidir. Folklora əsaslanan poemalar xalq dilinin canlı ifadə vasitələri ilə zənginləşir. Şifahi ənənədən gələn motivlər əsərə milli ruh və xəlqi mahiyyət qazandırır. Folklor yazılı nümunələrin fəlsəfi dərinliyini və ümumbəşəri əhəmiyyətini artırır. Bu inteqrasiya sübut edir ki, şifahi yaradıcılıq yazılı ədəbiyyatı ideya-məzmun zənginliyi və arxetipik obrazlarla qidalandıran fundamental bazadır.

## ƏDƏBİYYAT

1. Abdullayev B. Yusif Vəzir Çəmənzəminli və folklor. Bakı: "Elm", 1981, 124 s.
2. Abdullayev C. Səməd Vurğun və folklor. Bakı: "Elm", 1962, 156 s.
3. Babayev İ. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: "Maarif", 1970, 263 s.
4. Əfəndiyev P. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı: "Yazıçı", 1992, 123 s.
5. Əfəndiyev P. Cəfər Cabbarlı və xalq yaradıcılığı. Bakı: "Yazıçı", 1985, 197 s.
6. Əliyeva S. H.Arif və şifahi xalq ədəbiyyatı. Bakı: "Elm", 2007, 135 s.
7. Əliyev K. Atalar sözləri və aforizmlər. Folklor və yazılı ədəbiyyat, II kitab. Bakı: "Elm və təhsil", 2017, 3-13 s.
8. Kürdoğlu H. Tovuzum mənim – Oğuzum mənim. Bakı: "Elm", 1998, 108 s.
9. Kürdoğlu H. Yaralı torpağım, yaralı sevgim. Bakı: "Sabah", 1997, 248 s.
10. Mürşüdova U. Rəşid bəy Əfəndizadə və folklor. Bakı: "Kooperasiya" nəşriyyatı, 2004, 104 s.
11. Saləddin Ə. Sabir və folklor. Bakı, "Gənclik", 1969, 127 s.
12. http://az.wikisource.org/wiki/Alqışlar
13. http://anl.az/el/y/zy_se.pdf

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 27.04.2026*
*Son variant: 29.04.2026*